Əlavə 1.

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin
“11” fevral 2022-ci il tarixli
F-61 №-li əmri ilə təsdiq edilmişdir.

“Mənim gündəliyim” adlı oxu və yaradıcılıq müsabiqəsinin Əsasnaməsi

1. Giriş

Məktəb kitabxanaları və kitablar şagirdlərin şəxsiyyət kimi formalaşmasında mühüm vasitələrdən biridir. Təhsilalanları elmə və gələcəyə aparan məkanlar sırasında məktəb kitabxanaları ön sıradadır. “Kitabxana xalq, millət, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir”, - deyiblər. Məktəblilərin kiçik yaşlardan öz yaşlarına və maraqlarına uyğun ədəbiyyatla tanış olmaları onlarda həyat hadisələrinə, insanlara, təbiətə böyük maraq yaradır. Bədii əsərlərdəki obrazlar, psixoloji hallar, hadisələrin inkişafı uşaqların dünyagörüşünü genişləndirdiyi kimi məlumatlarını da artırır. Şagirdlər təlim prosesində öyrəndiklərini bədii ədəbiyyatı oxuyub təhlil edərkən bir daha təsdiqləyirlər. Məhz bu baxımdan şagirdlərin kamilləşməsinə, bədii-estetik zövqünün inkişafına təsir edən bədii ədəbiyyatın oxunması və təhlil edilməsi istiqamətində işin təşkili ümumi təhsil məktəblərində müntəzəm olaraq aparılmalı və mütaliə təhsilalanların həyat tərzinə çevrilməlidir.

2. Müsabiqənin məqsədi

Müsabiqə təhsilalanların mütaliə vərdişlərinin təkmilləşdirilməsi, oxu və yazı bacarıqlarının inkişaf etdirilməsi, Azərbaycan və dünya ədəbiyyatının görkəmli nümayəndələrinin yaradıcılığı barədə məktəblilərin məlumatlılıq səviyyəsinin artırılması, istedadlı və mütaliəyə marağı olan şagirdlərin vaxtında üzə çıxarılması və onlara dəstək göstərilməsi məqsədilə təşkil olunur.

3. Müsabiqənin keçirilmə qaydaları

Müsabiqə Bakı şəhərinin ümumi təhsil məktəblərinin ibtidai və yuxarı sinif şagirdləri arasında 2022-ci ilin fevral-iyun aylarında 2 mərhələdə təşkil edilir.

- Məktəb mərhələsi - 14 fevral – 31 may 2022-ci il.
- Şəhər mərhələsi - 09 iyun – 30 iyun 2022-ci il.

Müsabiqə 2 yaş qrupu - aşağı yaş qrupları (I-VII siniflər) və yuxarı yaş qrupları (VIII –XI siniflər) üzrə keçirilir.

4. Müsabiqənin məktəb mərhələsi

- Bu mərhələdə təhsilalanlar məktəb kitabxanalarının bədii kitablar hissəsindən istifadə edərək Azərbaycan və dünya ədəbiyyatından əsərləri oxuyur;
- İştirakçılar dəftər, bloknot və digər vasitələrdən istifadə etməklə gündəlik hazırlayır;
- Gündəliyin tərtibatında şagirdə sərbəstlik verilir;
- Gündəliyin ilk səhifəsində şagird özü haqqında məlumatları-adı, soyadı, ata adı, təhsil aldığı məktəb və sinfi qeyd edir;
- İştirakçı hər oxuduğu bədii nümunə barədə fikirlərini gündəlikdə yeni səhifədən başlayaraq qeyd edir;
- Şagird məktəb kitabxanalarından istifadə etməklə 14 fevral 2022-ci il tarixdən 31 may 2022-ci il tarixədək oxuduğu əsər barədə qeydlərini (əsərin adı və müəllifi, oxuma tarixi, əsər barədə rəyi, apardığı təhlili, əsərdən çıxardığı nəticəni, arzu, fikir və idealarını) gündəlikdə yazır;
- Müsabiqə iştirakçısı qeydlərinin sonunda əsərin oxuma tarixini (başlama və bitmə) qeyd edir;
- Şagird müsabiqəyə yaradıcı yanaşaraq bədii əsərin onda yaratdığı əhval-ruhiyyə və məzmuna uyğun gündəlikdə əlavə qeydlər apara bilər (şəkillər çəkmək, rəngləmələr etmək və s.);
- Şagirdə oxuduğu əsərlərin seçimində və gündəliyin yazılmasında sərbəstlik verilir;
- İştirakçı əsər seçimində təhsil aldığı məktəbin kitabxanasından istifadə edir;
- Müsabiqənin təşkilində məktəb kitabxanaçıları şagirdlərə yaxından köməklik edir və onlara müsabiqədə iştirakda dəstək göstərir;
- Gündəliyin sonunda şagird müsabiqə ərzində oxuduğu əsərlərin siyahısını (əsərin adı və müəllifini) qeyd edir;
- Məktəb rəhbərliyi 08 iyun 2022-ci il tarixdən gec olmayaraq şagirdlər tərəfindən təqdim olunmuş gündəlikləri Bakı Şəhəri üzrə Təhsil İdarəsinə təqdim edir.

5. Müsabiqənin Bakı şəhər mərhələsi

Müsabiqənin şəhər mərhələsi 09 iyun – 30 iyun 2022-ci il tarixlərində təşkil olunacaqdır. Bakı şəhər mərhələsində şagirdlərin təqdim etdiyi gündəliklərə ixtisaslı kadrlardan ibarət Münsiflər heyəti tərəfindən baxış təşkil olunacaq, qiymətləndirmə meyarlarına uyğun olaraq ən yaxşı işlər müəyyənləşəcəkdir.

6. Qaliblərin müəyyənləşdirilməsi

"Mənim gündəliyim" adlı oxu və yaradıcılıq müsabiqəsinin qiymətləndirilməsi aşağıdakı meyarlara uyğun aparılır.

Müsabiqənin qiymətləndirilmə meyarları:

- Gündəlikdə qeyd olunan əsərlərin müsabiqənin keçirilmə dövründə oxunması;
- Müsabiqə iştirakçısının qeydlərinin sonunda əsərin oxuma tarixini (başlama və bitmə) qeyd etməsi;
- Şagirdlərin oxuduqları əsərlərin sayı (hər yaş qrupu üzrə 5 əsərdən az olmayaraq);
- İştirakçının mütaliə etdiyi əsər barədə rəy və təhlilinin orijinallığı;
- Əsərin şagirddə yaratdığı arzu və idealların təqdim edilməsi;
- Əsərdən çıxan nəticənin aydın şəkildə qeyd edilməsi;
- Gündəliyin tərtibatı;
- İştirakçının yazı bacarıqları;
- Şagirdin müsabiqəyə yaradıcı yanaşması.

Hər bir meyar 10 ballıq sistemlə qiymətləndirilir.

7. Mükafatlandırılma

Bakı şəhər mərhələsinin nəticələrinə əsasən, 5 nəfər I yer, 5 nəfər II yer, 5 nəfər III yer olmaqla, ümumilikdə,15 şagird qalib adını qazanacaqdır. 10 şagirdə xüsusi fəallıq göstərdiyinə görə "Tərifnamə", 25 şagirdə isə fəal iştiraka görə "Təşəkkürnamə" təqdim olunacaqdır.

Qalib məktəblilər Bakı Şəhəri üzrə Təhsil İdarəsi tərəfindən diplom və hədiyyələrlə mükafatlandırılacaqdır.